# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT NEFT ŞİRKƏTİ

# Biznes Etikası və Davranış Kodeksi

**SOCAR-ın DƏYƏRLƏRİ**

Fəaliyyətimizin mərkəzində bizim Dəyərlərimiz dayanır. Onlar bizim kim olduğumuzu müəyyənləşdirir, hamımızın və növbəti nəsillərin daha uğurlu gələcəyi naminə bizi bir şirkət olaraq birləşdirir. Dəyərlərimiz mədəniyyətimizin fundamental əsaslarını əks etdirir və harada fəaliyyət göstərməyimizdən asılı olmayaraq, bütün işlərimizdə bizə bələdçilik edir. Kodeksimizdə də qeyd olunan əsas prinsiplər və qaydaların kökü aşağıda qeyd olunan Dəyərlərimizə əsaslanır:

| |
|---|
| **TƏHLÜKƏSİZLİK** |
| Təhlükəsizlik əsas prioritetimiz hesab olunur və biz atdığımız hər bir addımda İşçilərimiz, cəmiyyət, ətraf mühit və gələcək nəsillərin qorunması məqsədlərinə sadiqik |
| **VAHİD KOMANDA** |
| Məqsədlərimizə çatmaq üçün həm şirkət daxilində, həm də kənar tərəfdaşlarla münasibətlərdə bütün səviyyələrdə aparılan əməkdaşlığın gücünə dərindən inanan bir komanda şəklində işləmək həvəsindəyik |
| **DAVAMLI İNKİŞAF** |
| Hədəflərimizə çatmaq, gözləntiləri aşmaq və mümkün olan ən yaxşı nəticəni əldə etmək məqsədi ilə ən qabaqcıl təcrübələri davamlı olaraq öyrənmək, bölüşmək və tətbiq etmək istiqamətində inkişaf edirik |
| **HESABATLILIQ** |
| SOCAR olaraq biz əməliyyatlarımızın miqyas və təsirinin fərqindəyik, bu səbəbdən də korporativ missiyamız, istəyimiz və strategiyamızın həyata keçirilməsi istiqamətində atdığımız hər bir addıma görə tam məsuliyyət daşıyırıq |
| **QAYĞI** |
| Biz ətraf mühitin qayğısına qalır və onunla hansı şəkildə rəftar etdiyimizə görə məsuliyyət daşıyır, öz İşçilərimizin və xidmət göstərdiyimiz insanların qayğısına qalır və onların rifahını prioritet hesab edirik |

**MÜNDƏRİCAT:**

Dəyərlərimiz……………………………………………………………………………..1

1. Kodeksimizdən istifadə və ona əməl olunması……………................………………….....2
2. Təhlükəsizlik……………………………………………………………………...…..7
3. İnsanlarımız………………………………………………………………………...8
4. Əmlak və digər aktivlərimizin qorunması ...……………………………………………10
5. Tətbiq etdiyimiz fəaliyyət tərzi...……………………………………….......................12

İstifadə olunan təriflər.......................................................................................................20

## 1. KODEKSİMİZDƏN İSTİFADƏ VƏ ONA ƏMƏL OLUNMASI

### DAVRANIŞ KODEKSİ HAQQINDA

Kodeksimiz:

- Şirkətimizin təməlini təşkil edən Dəyərlərimiz, təhlükəsizlik mədəniyyəti, insanlarımız, əmlakımız və digər aktivlərimiz, tətbiq etdiyimiz fəaliyyət tərzi və problemləri bildirmək mədəniyyətinə əsaslanır;
- Kodeksin hər bir bölməsində müəyyən edilmiş prinsiplərə əsaslanır;
- Beynəlxalq standartlar da daxil olmaqla tətbiq olunan müvafiq standartları təsvir edir;
- İşçilərimizdən gözləntilərimizi müəyyənləşdirir;
- Üçüncü tərəf xidmət təminatçılarımıza (onların işçiləri də daxil olmaqla), bizim və ya SOCAR Qrup Müəssisələri adından çalışan istənilən digər şəxslərə, habelə birlikdə işlədiyimiz Biznes tərəfdaşlarına, hökumətlərə və yerli icmalara münasibətdə gözləntilərimizi müəyyən edir.

Kodeksimizdə istinad edilən bütün siyasət və digər daxili normativ sənədlər (zaman-zaman yenilənməklə) Kodeksimizin ayrılmaz hissəsini təşkil edir.

Uyğunluq departamenti SOCAR-ın daxili qaydaları əsasında müəyyən edildiyi kimi digər departamentlərin dəstəyi ilə Kodeksimizin[1] tətbiqi və monitorinqi üçün əsas struktur bölmə kimi məsuliyyət daşıyır.

Kodeksimizdə müəyyən edilmiş tələblərlə bağlı suallarınız olduğu təqdirdə, Rəhbəriniz və/və ya Uyğunluq departamenti ilə əlaqə saxlamağınız xahiş olunur.

### KODEKSİMİZ KİMƏ ŞAMİL OLUNUR?

Kodeksimiz aşağıdakılara şamil olunur:

(I) SOCAR-ın bütün işçiləri, o cümlədən Müşahidə Şurasının və İdarə Heyətinin üzvləri;

(II) SOCAR Qrup Müəssisələri*;

(III) Müqavilə əsasında cəlb olunmuş bütün heyət (əmək müqaviləsi istisna olunmaqla);

(IV) Kənar qurumların SOCAR-a uzunmüddətli ezam olunmuş və SOCAR-ın obyektlərində işləyən bütün işçiləri (“secondment” üsulu ilə - əgər varsa);

* Əgər SOCAR Qrup Müəssisələri artıq öz davranış kodeksini və ya oxşar siyasəti qəbul ediblərsə, həmin davranış kodeksləri və ya oxşar siyasətlər Kodeksimiz ilə uyğunluğun təmin olunması məqsədilə yenilənməlidir. Özünün belə kodeksi və ya oxşar siyasəti olmayan SOCAR Qrup Müəssisələri bilavasitə bu Kodeksi tətbiq etməlidirlər. Əgər hər hansı SOCAR Qrup Müəssisəsnə yerli qanunvericiliyə və ya həmin Müəssisələrin bağladığı əqdlərin xarakterinə görə daha sərt tələblər tətbiq edilirsə, o zaman həmin Müəssisələr daha sərt olan tələbləri rəhbər tutmalıdırlar. SOCAR Qrup Müəssisələri yerli qanunvericiliyin məcburi tələblərinə əməl etmək məqsədilə öz siyasətlərini həmin tələblərə uyğunlaşdırmalıdırlar.

---

[1] Kodeksimiz, zəruri hesab olunduğu təqdirdə, vaxtaşırı olaraq yenilənə bilər. Yenilənmiş versiyalar çap olunacaq. Lakin, tələb olunduqda istənilən dəyişikliklər ilk növbədə elektron versiyada öz əksini tapacaq və bu, hər zaman ən sonuncu buraxılış hesab ediləcək.

Kodeksimiz SOCAR Qrup Müəssisələrinin Azərbaycan Respublikasının Bakı şəhərində yerləşən Baş ofisinin təşkilati və struktur modelinə əsaslanır.

Bu Kodeksi qəbul etdikdə və ya yuxarıda göstərildiyi kimi, özünün mövcud davranış kodeksində və ya oxşar siyasətində yeniləmələr apararkən, hər bir SOCAR Qrup Müəssisəsi Kodeksdə istifadə olunan müxtəlif departamentlərə, biznes vahidlərinə, sektorlara və ya hər hansı digər struktur bölmələrinə istinad edərkən özünün ekvivalent təşkilati və struktur modelindən istifadə etməlidir. Məsələn: Kodeksimizdə Uyğunluq departamentinə istinad edilir, buna görə də SOCAR Qrup Müəssisəsi öz daxili normativ sənədlərində uyğunluq ilə bağlı funksiyaları həyata keçirən struktur bölməsini nəzərdə tutmalıdır.

SOCAR-ın və SOCAR Qrup Müəssisələrinin daxili intizam qaydaları və Kodeksimiz arasında ziddiyyət yarandığı təqdirdə, Kodeksimizin müddəaları əsas götürülür.

Bütün Üçüncü tərəf xidmət təminatçılarımız (işçiləri də daxil olmaqla), SOCAR və ya SOCAR Qrup Müəssisələri adından fəaliyyət göstərən hər hansı digər şəxslərdən, eləcə də Biznes tərəfdaşlarımızdan gözlənilir ki, onlar öz fəaliyyətlərində Kodeksimizi rəhbər tutsun və tələb olunan qaydada hərəkət etsin.

SOCAR/ SOCAR Qrup Müəssisəsi, onların Nəzarətində olmayan hər hansı Birgə Müəssisədə iştirak payına sahibdirsə, SOCAR/ SOCAR Qrup Müəssisəsi mövcud şərtlər daxilində ağlabatan həcmdə, öz təsir imkanlarından xoş niyyətlə istifadə edərək həmin Birgə Müəssisə tərəfindən bu Kodeksin prinsiplərinə uyğun davranması üçün həmin Birgə Müəssisəni sövq etməyə çalışmalıdır. SOCAR/ SOCAR Qrup Müəssisəsi potensial Birgə Müəssisənin digər tərəfdaşı tərəfindən Kodeksimizin və ya Kodeksimizlə uyğunluq təşkil edən özünün kodeksinin və yaxud oxşar siyasətinin müvafiq olaraq rəhbər tutulmasına və ya qəbul edilməsinə razılıq verilməsə, həmin Birgə Müəssisədə iştirak etməyəcək.

Kodeksimizlə bağlı gözləntilərimiz həm fiziki, həm də onlayn şəkildə aparılan fəaliyyətlərə tətbiq edilir. Odur ki, Kodeksimizin pozulması fiziki iş yerindən kənarda da baş verə bilər.

## ÖHDƏLİKLƏRİMİZ

SOCAR-da tutduğumuz vəzifədən asılı olmayaraq, biz öz davranışımızla nümunə olur, dürüstlük nümayiş etdirir və Kodeksimizə əməl olunmasını təşviq edirik. Aşağıda həmçinin Rəhbərlər üçün əlavə öhdəliklər təsvir olunur.

| **SOCAR-ın işçisi olduğunuz üçün, Sizdən aşağıdakı gözləntilərimiz var:** | **Rəhbər olduğunuz üçün, Sizdən SOCAR-ın işçiləri üçün tətbiq olunan bütün tələblərə əməl etməyinizə dair və əlavə olaraq aşağıdakı gözləntilərimiz var:** |
|---|---|
| Öhdəlikləriniz də daxil olmaqla Kodeksimizi oxumaq, anlamaq və ona əməl etmək | SOCAR-ın etika və uyğunluq mədəniyyətinə sadiqliyinizi nümayiş etdirməklə nümunəvi davranmaq |
| Vəzifənizlə bağlı riskləri və onları necə idarə edəcəyinizi anlamaq | Həmkarların sərbəst və rahat şəkildə suallarını verə biləcəyi və problemləri bildirəcəyi iş mühitini yaratmaq |
| İşlədiyiniz hər hansı üçüncü tərəflər (kənar şəxs və ya qurumlar), o cümlədən Üçüncü tərəf xidmət təminatçılarının Kodeksimizə əməl etməli olduğumuzdan xəbərdar olduqlarından və onların | Layiqlik, ixtisaslaşma, nümayiş etdirilən bacarıq və nailiyyətlər əsasında kadrların seçilməsi, inkişafı və təkmilləşdirilməsi ilə bağlı qərarlar qəbul etmək |

| | |
|---|---|
| da Kodeksimizə uyğun hərəkət edəcəklərindən əmin olmaq | |
| Araşdırma və ya auditə cəlb olunarkən tam şəkildə əməkdaşlıq etmək və bütöv həqiqəti söyləmək | Çevrənizdəki ən sakit səsin belə eşidildiyinə əmin olmaq |
| İştirak etməli olduğunuz etika və uyğunluq məsələləri, o cümlədən ayrı-seçkiliyin və qısnamanın qarşısının alınması üzrə təlimləri tez bir zamanda tamamlamaq | Komandanızı dəstəkləmək və onlardan nə gözlənildiyini anlamaqda onlara kömək etmək |
| Sizə nə isə aydın olmadıqda məsləhətləşmə üçün müraciət etmək və fikrinizi bildirmək, suallarınızı vermək və tətbiq olunan qanunvericiliyin, qaydaların və ya Kodeksimizin mümkün pozulması halları barədə məlumatınız olarsa bu barədə bildirmək | Bildirilən problemləri dərhal məruzə etmək və xoş niyyətlə öz problemlərini bildirən şəxslərə dəstək olmaq |
| "Davranış Kodeksinə dair illik sertifikatlaşma"dan keçməklə Kodeksimizə uyğun hərəkət etdiyinizi hər il təsdiq etmək (bu sertifikatlaşma prosesi Uyğunluq departamenti tərəfindən idarə olunacaq) | |

SOCAR Kodeksimizin müddəalarının Müqavilə əsasında cəlb olunmuş heyətə və Kənar qurumların SOCAR-a uzunmüddətli ezam olunmuş və SOCAR-ın obyektlərində işləyən bütün işçilərə ("secondment" üsulu ilə) şamil olunmasının tərəfdarıdır. Bu, SOCAR/SOCAR Qrup Müəssisəsi və Müqavilə əsasında cəlb olunmuş heyəti və Kənar qurumların SOCAR-a uzunmüddətli şəkildə ezam olunmuş və SOCAR-ın obyektlərində işləyən bütün işçiləri ("secondment" üsulu ilə) təmin edən Üçüncü tərəf xidmət təminatçıları arasında bağlanılan və ya SOCAR/SOCAR Qrup Müəssisəsi və həmin heyət və işçilər arasında bağlanılan müqavilə müddəalarında öz əksini tapmalıdır. Bu məqsədlə, Kodeksimizdə SOCAR-ın işçilərinə aid edilən bölmələr, eyni zamanda Müqavilə əsasında cəlb olunmuş heyətə və Kənar qurumların SOCAR-a uzunmüddətli ezam olunmuş və SOCAR-ın obyektlərində çalışan bütün işçilərə şamil olunur.

**ƏN SƏRT STANDARTLAR**

Bizim fəaliyyətimiz bir sıra ölkələri əhatə edir. Fəaliyyət göstərdiyimiz yerdə, o cümlədən Azərbaycanda tətbiq olunan qanunvericiliyin tələbi ilə bu Kodeksin arasında ziddiyyət yaranarsa, tətbiq olunan qanunvericiliyin tələbinə uyğun olaraq ən sərt müddəa rəhbər tutulur.

Bundan əlavə, əgər tətbiq olunan qanunvericiliyin tələbləri Kodeksimizdə müəyyən edilən tələblər qədər sərt deyilsə, o zaman, konkret hallarda, SOCAR-ın işçiləri qüvvədə olan qanunvericiliyin məcburi müddəalarını pozmamaq şərtilə Kodeksimizə əməl etməlidirlər.

**MƏSLƏHƏTLƏŞMƏ VƏ POZUNTULAR HAQQINDA MƏLUMAT VERMƏ**

Kodeksimizdə düzgün davranış və dürüstlüyün qorunması ilə bağlı geniş təlimatlar təqdim edilsə də, o, üzləşə biləcəyiniz bütün mümkün halları əhatə edə bilməz.

Buna görə də, əgər Siz Kodeksimizin, siyasətlərimizin və ya tətbiq olunan qanunvericiliyin mümkün pozulmasından və ya istənilən digər qeyri-etik davranışdan şübhələnirsinizsə, bu barədə dərhal məlumat

verməyiniz tələb olunur. Bura rüşvət və korrupsiyanın digər formalarına, ayrı-seçkilik və qısnamaya aid cəhdlər barədə əldə etdiyiniz məlumatların, məruz qaldığınız halların xüsusiyyətlərinin bildirilməsi də daxildir. Anlayırıq ki, pozuntu barədə məlumat vermək heç də həmişə asan deyil və buna görə də məlumatları ötürmək üçün bir neçə vasitələrimiz mövcuddur.

Unutmayaq ki, bildirilən hər hansı məlumat bizim daha güclü şirkət olmağımıza kömək edəcək. Bütün bölmələrdə qeyd etdiyimiz kimi, biz məlumat bildirilməsinə görə qisas tədbirlərinə qarşı dözümsüzlük nümayiş etdiririk. İstənilən pozuntular barədə məlumatları obyektiv şəkildə araşdırıb əsaslandırılmış qərar qəbul etmək üçün, biz onlardan xəbərdar olmalıyıq.

Məsləhətləşmək və ya Kodeksimizin, qüvvədə olan qanunvericiliyin və ya siyasətlərimizin pozulması halları barədə məlumat vermək üçün aşağıdakılardan Sizə ən uyğun olanı seçə bilərsiniz:

- Dərhal birbaşa Rəhbərinizi məlumatlandırın. Rəhbərinizlə danışmaq Sizə rahat deyilsə, birbaşa Rəhbərinizin rəhbəri ilə əlaqə saxlaya bilərsiniz;
- Bu seçimlər Sizin üçün münasib deyilsə, Uyğunluq departamenti ilə əlaqə saxlaya bilərsiniz;
- Əgər bu seçimlərdən heç biri Sizi qane etmirsə, məlumatı aşağıdakılar vasitəsilə bildirə bilərsiniz:
  - SOCAR-ın Etika və Uyğunluq məsələləri üzrə Yardım Xəttinə (ethics@socar.az elektron poçt ünvanına məktub göndərmək, yaxud https://socar.az saytına daxil olaraq müvafiq bölmədən məlumat yükləməklə)və/və ya;
  - SOCAR Qrup Müəssisəsinin özünün yerli qaydada idarə etdiyi qaynar (yardım) xəttinə müraciət etməklə.
- Siz Kodeksə əməl olunması ilə bağlı sualınızı vermək üçün eyni vaxta bir neçə vasitə kanalından istifadə edə bilərsiniz.
- Əgər məlumatınızı anonim şəkildə vermək istəyirsinizsə, mümkün qədər ətraflı məlumat verməyiniz xahiş olunur. Sizə əlavə məlumatın təqdim olunması üçün, həmçinin hər hansı sorğu göndərildiyini öyrənmək üçün lütfən təqdim etdiyiniz əlaqə vasitəsini müntəzəm yoxlayın.

## SOCAR-ın ETİKA VƏ UYĞUNLUQ MƏSƏLƏLƏRİ ÜZRƏ YARDIM XƏTTİ

SOCAR-ın Etika və Uyğunluq məsələləri üzrə Yardım Xətti (ethics@socar.az elektron poçt ünvanı və https://socar.az internet saytının müvafiq bölməsi) Azərbaycan Respublikası daxilində SOCAR-ın daxili ixtisaslaşmış heyəti tərəfindən idarə olunur. Məlumatlarınızı anonim şəkildə də bildirə bilərsiniz.

SOCAR Qrup Müəssisələrinin hər birinin özünün yerli qaydada etika və uyğunluq məsələləri üzrə qaynar (yardım) xətti ola bilər və əgər başqa hal nəzərdə tutulmayıbsa, bu qaynar (yardım) xətlər SOCAR Qrup Müəssisələrinin daxili ixtisaslaşmış heyətləri tərəfindən idarə olunur və onların strukturu SOCAR-ın Etika və Uyğunluq məsələləri üzrə Yardım Xəttinin yuxarıdakı strukturuna oxşar olmalıdır.

## QİSAS TƏDBİRLƏRİNƏ QARŞI DÖZÜMSÜZLÜK

SOCAR Kodeksimizin, qüvvədə olan qanunvericiliyin, siyasətlərimizin və digər daxili normativ sənədlərimizin mümkün pozulmasına dair məlumatları bildirən hər hansı şəxsin (o cümlədən SOCAR-ın işçilərinin Qohumlarına və yaxınlarına) əleyhinəqisas tədbirlərinin görülməsinə qarşı dözümsüzlük nümayiş etdirir və etdirəcək. Bu, bildirdiyiniz məlumatda faktiki olaraq heç bir pozuntu aşkar edilməsə belə keçərlidir. İşçilərimizə qarşı hər hansı təhdid və ya qisas tədbirinin görülməsi Kodeksimizin ciddi şəkildə pozulması kimi qiymətləndiriləcəkdir. Əgər Siz və ya tanıdığınız hər hansı şəxs qisas tədbiri ilə üzləşibsə, məlumat vermə kanallarımızdan istifadə edərək bu barədə məlumat bildirməyiniz xahiş olunur.

Aşağıda SOCAR-ın öz işçilərinə qadağan etdiyi qisas tədbirlərinin bəzi nümunələri təqdim olunur:

- SOCAR-ın işçisinin maaş və ya ödənişlərinə hər hansı mənfi müdaxilənin edilməsi;
- Aşağı vəzifəyə keçirilmə, vəzifədən kənarlaşdırma (işin icrasının dayandırılması) və ya əmək müqaviləsinin ləğv edilməsi;
- Alçaldıcı əməllər;
- Vəzifədə gözlənilən artımın (karyera yüksəlişinin) qarşısının alınması;
- Təcrid etmə hərəkətləri, o cümlədən işçinin iş həcminə aid iclaslara cəlb edilməməsi;
- İstər iş yerində, istərsə də işdən kənarda işçiyə qarşı təhdidlər;
- SOCAR-ın işçisinə qarşı hər hansı ədavət əməlləri.

## POZUNTULAR BARƏDƏ MƏLUMATLARA BAXILMASI QAYDASI

Hər bir bildirilən şikayətlə bağlı biz aidiyyəti departamentləri, habelə Uyğunluq departamenti, Hüquq departamenti və lazım olduqda, digər əlaqəli departamentləri, məsələn İnsan Kapitalı və İnkluzivlik seqmentinin müvafiq departamentini cəlb etməklə işin mahiyyətini qiymətləndirəcəyik. Bu proses konfidensial qaydada idarə olunacaq. Tərəfimizdən obyektiv olaraq araşdırmanın başlanmasına dair qərar qəbul edilərsə, müvafiq araşdırma qrupu cəlb olunacaq. Nəticələr müvafiq biznes vahidinə də çatdırılacaq və araşdırma nəticəsində pozuntular, o cümlədən ayrı-seçkilik və qısnama halları barədə bildirilən məlumatlara dair kifayət qədər sübutlar toplandığı təqdirdə, qərarda intizam tənbehinin tətbiqi də nəzərdə tutula bilər. Müvafiq rəyimiz məlumatı bildirən SOCAR-ın işçisi ilə də paylaşılacaq.

Lakin heç bir halda, özünüz səlahiyyətsiz şəkildə, təkbaşına araşdırma aparmayın və hər hansı şəxsin pozuntu əməlində iştirakına dair kifayət qədər dəliliniz olmadığı halda, onun adını Rəhbər olmayan həmkarınıza bildirməyin.

## DAXİLİ ARAŞDIRMALAR

Pozuntu barədə məlumatı və ya məsələni araşdırmaq üçün Sizin yardımınıza ehtiyacımız ola bilər. Siz tam və dolğun şəkildə əməkdaşlıq etməli, doğru və dəqiq məlumat təqdim etməlisiniz. Araşdırmaya mane olan cəhdlərin edilməsi, məsələn, sənədlərin və ya digər sübutların məhv edilməsi və ya dəyişdirilməsi, həqiqətə uyğun olmayan məlumatların təqdim edilməsi və ya digər şəxslərin həqiqətə uyğun olmayan məlumatlar verməyə sövq edilməsi Kodeksimizin pozulması hesab olunur. Əgər araşdırmanın nəticəsi olaraq Kodeksimizin, digər daxili normativ sənədlərimizin və ya qanunvericiliyin pozulması halları aşkar edilərsə, buna cavab olaraq tərəfimizdən müvafiq tədbir görüləcəkdir. Vəziyyətdən asılı olaraq, belə tədbirlərə intizam tənbehinin tətbiqi, eləcə də əmək müqaviləsinə və üçüncü tərəflərə (kənar şəxs və ya qurumlara) münasibətdə müqavilə münasibətlərinə xitam verilməsi daxildir. Tətbiq olunan qanunvericilik fiziki şəxslər tərəfindən pozulduğu təqdirdə, onlara qarşı mülki iddiaların qaldırılması və ya cinayət təqibinin aparılması da mümkündür.

## VƏZİFƏLƏR İCRA EDİLƏRKƏN QƏRARLARIN QƏBULUNDA ETİK TƏLƏBLƏRİN GÖZLƏNİLMƏSİ

Vəzifələr icra edilərkən qərarların qəbulunda etik tələblərin gözlənilməsi SOCAR-ın uğurlu fəaliyyəti üçün olduqca vacib şərt hesab olunur. Bəzi vəziyyətlər hamı üçün aydın olsa da, elə vəziyyətlər vardır ki, onlar açıq-aşkar deyildir və etik tələblər gözlənilməklə qərarların qəbuluna çətinlik yarada bilər. Qərarınızla bağlı qeyri-müəyyənlik varsa və ya hər hansı bir şübhəniz qalıbsa, lütfən özünüzə aşağıdakı sualları verin və cavabları barədə düşünün:

- Bu vəziyyət Kodeksimizə, Dəyərlərimizə və aidiyyəti normativ sənədlərimizə uyğundurmu?
- Bu əməl qanunidirmi və mənim bunu yerinə yetirmək səlahiyyətim varmı?
- Bundan kimsə zərər çəkə bilərmi?

- Bunu etmək düzgündürmü?
- İctimailəşdiyi təqdirdə, mən şəxsən və şirkət səviyyəsində özümü rahat hiss edə biləcəyəmmi?

Bu və ya oxşar suallardan hər hansı birinin cavabına dair şübhəniz varsa, qərarınızla bağlı birbaşa Rəhbərinizlə, başqa həmkarınızla məsləhətləşin, SOCAR-ın məsələ üzrə mütəxəssisindən kömək istəyin və ya məlumat vermə kanallarımızdan birinə müraciət edin. Siz tək deyilsiniz və belə çətin vəziyyətdə özünüzü tək hiss etməməlisiniz.

## 2. TƏHLÜKƏSİZLİK

### SAĞLAMLIQ, TƏHLÜKƏSİZLİK, ƏMƏYİN MÜHAFİZƏSİ, ƏTRAF MÜHİT VƏ SOSİAL FƏALİYYƏT SƏMƏRƏLİLİYİ

Təhlükəsizlik bizim əməliyyatlarımızın təməlini təşkil edir və əsas Dəyərlərimizdən biri hesab olunur. Biz təhlükəsizlik, əməyin mühafizəsi, ətraf mühitin qorunması və fəaliyyət göstərdiyimiz yerlərin icmalarına hörmət göstərilməsi məqsədimizə sadiqik. Təhlükəsizlik, mühafizə və ekoloji hədəflərimiz qəzaların baş verməməsi, insanlara və ətraf mühitə zərər dəyməməsi prinsipinə əsaslanır.

Hər birimiz təhlükəsizlik məsələlərində nümunə olmalıyıq.

Qəbul etdiyimiz davamlı inkişaf siyasəti çərçivəsində hədəflədiyimiz məqsədlərə, o cümlədən xalis zərərsizliyin əldə olunması, iqlim dəyişikliyi ilə mübarizədə köməkliyin göstərilməsi və sosial fəaliyyətin səmərəliliyinin artırılmasına nail olmağı qarşımıza vəzifə qoymuşuq.

Bizim Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsinin (SƏTƏMM) və Sosial Fəaliyyətin Səmərəliliyinin (SFS) idarə edilməsinə yanaşmamız Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi, SOCAR-da Əməliyyatların bütövlüyünün idarəetmə sistemi, Ekoloji və Davamlı inkişaf siyasətlərində və Bizi Qoruyan Qaydalarda öz əksini tapmışdır. Sağlamlıq, əməyin təhlükəsizliyi, mühafizə və ətraf mühitlə bağlı siyasətlərimiz və qaydalarımız İşçilərimiz və iş sahələrimizdə çalışan Üçüncü tərəf xidmət təminatçılarının işçilərinə münasibətdə təhlükəsiz iş şəraitinin yaradılması məqsədinə xidmət edir. Bundan əlavə, bu Kodeksin, siyasətlərin və qaydaların tərkib hissəsi olaraq məqsədimiz qüvvədə olan qanunvericiliyə əməl olunmasını təmin etmək və iş səmərəliliyinin davamlı olaraq yaxşılaşdırılmasına nail olmaqdır.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir**:

- ✓ SƏTƏMM-ə aid siyasət və qaydalara əməl etmək və daxili sənədlərdə əks olunan bu tələbləri yaxşı bilmək;
- ✓ İşin bir hissəsi kimi və ya üçüncü tərəflərlə (kənar şəxs və qurumlarla) işləyərkən sağlamlıq, əməyin mühafizəsi, təhlükəsizlik mədəniyyətini və ətraf mühitə hörməti təşviq etmək;
- ✓ Təhlükəli və ya qeyri-qanuni hərəkətlərə (tətbiq olunan qanunvericiliyə zidd davranış) cəlb olunmamaq;
- ✓ Təhlükəli və ya tələblərə zidd olan iş və ya vəziyyətlərə biganə qalmamaq və dərhal bu barədə məlumat vermək. Bunu Sizin yerinizə başqasının edəcəyini düşünməmək
- ✓ İşlədiyiniz və ziyarət etdiyiniz yerlərdə fövqəladə hallarla bağlı tətbiq olunan prosedurlar və fövqəladə vəziyyət üçün nəzərdə tutulmuş (evakuasiya) çıxışlardan xəbərdar olmaq;
- ✓ Üçüncü tərəfləri (kənar şəxs və qurumları) SƏTƏMM və SFS tələblərimizi öyrənməyə və onları tətbiq etməyə təşviq etmək;
- ✓ Ətraf mühitin qorunmasına şəxsi iştirakla töhfə vermək – bunu şəxsi prioritetə çevirmək;
- ✓ Davamlı inkişaf siyasətimizin məzmununu yaxşı bilmək və onun həyata keçirilməsində şəxsi iştirakla töhfə vermək.

İstinad:

SOCAR-ın Sağlamlıq, Əməyin Təhlükəsizliyi və Ətraf Mühitin Mühafizəsi siyasəti

SOCAR-ın Əməliyyatların Bütövlüyünün İdarəetmə Sistemi

SOCAR-ın Ekoloji siyasəti

SOCAR-ın Davamlı İnkişaf siyasəti

Bizi Qoruyan Qaydalar

## 3. İNSANLARIMIZ

Dəyərlərimizdə təsdiq etdiyimiz kimi, insanlarımızı ən vacib sərvətimiz hesab edirik və biz, Vahid Komandayıq. "Qayğı" Dəyərimizə uyğun olaraq bir-birimizə hörmət və qayğı göstərməyimiz zəruridir. Məhz bununla biz fərdi şəkildə və şirkət olaraq uğur qazanırıq. Hörmət, qayğı, ədalət, həmçinin bərabərlik, müxtəliflik, ayrı-seçkiliyə yol verilməməsi və inklüzivliyin təşviqinə əsaslanan korporativ mədəniyyətin qorunub saxlanmasında hamımızın rolu var və SOCAR-ın bütün işçilərindən bir-biri ilə və üçüncü tərəflərlə (kənar şəxs və qurumlarla) münasibətdə buna müvafiq olaraq davranışına dair gözləntimiz var. Biz bütün bu məqsədlərə insanlarımızla birlikdə çatmaq niyyətindəyik.

### BƏRABƏRLİK, MÜXTƏLİFLİK VƏ İNKLÜZİVLİK

SOCAR üçün onun hər bir işçisi dəyərlidir. Əgər fərqli təcrübəyə, müxtəlif istedad və fikirlərə malik olan insanlar ilə, hər kəsin öz töhfəsini verə biləcəyi və istedadlarından tam istifadə edə biləcəyi mühitdə birlikdə işləsək, biz daha çox və daha yaxşı işlər görəcəyik.

Biz İşçilərimizin kollektiv danışıqların aparılması məqsədilə həmkarlar ittifaqı tərəfindən təmsil olunub-olunmamasını seçmək hüququna hörmət edirik. Bu hüquqdan istifadə edən heç bir işçi ayrı-seçkiliyə məruz qalmamalıdır. Bütün işçilər özlərinin əmək müqaviləsinin əsas iş şərtlərini bilməlidirlər.

Biz, bütün insanları dinləyirik və istər görüşlərdə, istərsə də gündəlik ünsiyyətdə SOCAR-ın hər bir işçisinə inklüziv yanaşmanın sərgilənməsini təşviq edirik.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ Hər kəslə hörmət, ədalət və ləyaqətlə rəftar etmək;
- ✓ Hər bir komanda üzvünün mədəniyyət fərqi və digər fərqli xüsusiyyətlərinə hörmətlə yanaşmaq;
- ✓ Yeni fikir və mövqelərə açıq olmaq;
- ✓ Problemləri bildirən şəxsləri buna görə həvəsləndirmək və dinləmək.

### QISNAMA, AYRI- SEÇKİLİK VƏ BƏRABƏR İMKANLAR

Biz inanırıq ki, hər kəsə ədalət, hörmət və ləyaqətlə rəftar etmək prinsipi əsasında yanaşılmalıdır. Biz işəgötürən olaraq bərabər imkanların yaradılmasına, layiqli iş şəraitinin təqdim olunmasına və obyektiv meyarlar əsasında müəyyən edilən kateqoriyalar çərçivəsində əməyin bərabər ödənilməsi yanaşmamıza sadiqik. Biz bütün təqib və zorakılıq formalarına, o cümlədən cinsi qısnama və məsxərəyə qoyma hallarına dözümsüz yanaşırıq. Qısnama müxtəlif formalarda ola bilər və həmkarlar, Rəhbərlər və ya qeyri-işçi olan şəxslər tərəfindən edilə bilər.

Biz fərdi müxtəlifliklərdən və şəxsi xüsusiyyətlərindən asılı olmayaraq insanlara hörmət edildiyi bir iş mühiti yaratmağı hədəfləyirik. Biz həmkarların və başqa insanların, o cümlədən SOCAR-ın işçisi vəzifəsinə namizədlərin ayrı-seçkiliyə məruz qalmasına dözümsüz yanaşırıq. Ayrı-seçkilik irqinə, cinsinə, yaşına,

əlilliyinə, əmlak vəziyyətinə, SOCAR-da tutduğu vəzifəyə, cinsi oriyentasiyasına, dini və siyasi baxışlarına, milli və ya etnik mənşəyinə, nigah və yaxud valideynlik statusuna və ya bərabərliyin pozulması ilə nəticələnən hər hansı digər əlamətlərə əsaslanaraq qeyri-ədalətli və ya qərəzli münasibətin sərgilənməsini özündə ehtiva edir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ Qısnama və ayrı-seçkilikdən uzaq müsbət iş mühitinin yaradılması və saxlanılması üçün fərdi məsuliyyət daşımaq;
- ✓ Biznes qərarlarını layiqlik prinsipi əsasında qəbul etmək və yuxarıda qeyd olunan amillərə görə ayrı-seçkiliyə yol verməmək;
- ✓ Cinsi qısnamanın arzuolunmaz cinsi xarakterli təklifləri, cinsi istək və ya fiziki təmas tələbləri və ya hər hansı digər cinsi təhqiredici davranışları özündə ehtiva etdiyini yadda saxlamaq;
- ✓ Üçüncü tərəf xidmət təminatçılarımıza (onların işçiləri də daxil olmaqla), SOCAR və ya SOCAR Qrup Müəssisələri adından çalışan digər şəxslərə, o cümlədən Biznes tərəfdaşlarımıza bizim qısnama və ayrı-seçkiliyin qadağan edilməsi, habelə bərabər imkanların yaradılması kimi tələblərimizə uyğun hərəkət etməli olduqları barədə gözləntilərimizi bildirmək.

## NARKOTİK VƏ SPİRTLİ İÇKİLƏR

İş zamanı, o cümlədən inzibati binada, sahədə və ya uzaqdan işləmə mühitlərində sağlamlıq və təhlükəsizlik risklərinə həmişə diqqətli yanaşın. İş səmərəliliyinizin spirtli içki və ya narkotik, o cümlədən ona aid reseptli və reseptsiz dərmanlar ilə pozulmadığından əmin olun.

SOCAR narkotik və spirtli içkilərin istifadə olunmadığı iş yeridir. Biz heç kimin SOCAR-da işlədiyi müddətdə narkotik və ya spirtli içkinin təsiri altında olmasına dözümlü yanaşmayacağıq.

Lakin, yerli adətlər, ənənələr, hadisələr, o cümlədən SOCAR tərəfindən təşkil edilən tədbirlər zamanı və SOCAR-ın prezidenti və ya SOCAR-ın prezidentinin səlahiyyətləndirdiyi nümayəndələrin icazə verdiyi tədbirlər zamanı, məhdud miqdarda spirtli içkidən istifadə oluna bilər, bir şərtlə ki, spirtli içkilərdən istifadə və onların təsiri altında olma işləyən mexanizmlərin, nəqliyyat vasitələrinin idarə edilməsi və digər uzlaşmayan fəaliyyət ilə eyni zamanda baş vermir. Narkotik və spirtli içkilərin bədəndə olub-olmamasının yoxlanılması testləri zəruri hallarda və tətbiq olunan qanunvericiliyə uyğun olaraq aparıla bilər.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ Narkotik və ya spirtli içkilərin təsiri altında işləməmək;
- ✓ Hər hansı qəza, xəsarət, xəstəlik və ya təhlükəli və yaxud sağlamlığı pozan vəziyyət barədə dərhal məlumat vermək.

## CİNSİ XARAKTERLİ XİDMƏTLƏRİN KOMERSİYALAŞDIRILMASI VƏ CİNSİ XARAKTERLİ ƏLAQƏLƏRİ HƏDƏ-QORXU İLƏ TƏLƏB ETMƏ

Cinsi (seksual) xarakterli xidmətlərin əldə edilməsi qeyri-qanuni ola bilər, həmçinin insan alverinə dəstək verə və təhlükəsizlik riskləri yarada bilər. İnsan alveri insan hüquqlarının pozulması deməkdir. Yerli qaydalardan və adət-ənənələrdən asılı olmayaraq, SOCAR heç bir cinsi xarakterli xidmətin kommersiyalaşdırılmasını qəbul etmir və İşçilərimiz tərəfindən SOCAR-a aid obyektlər daxilində, habelə həmin obyektlərdə olub-olmamasından asılı olmayaraq işçilərimizin iş vaxtı ərzində və ya İşçilərimizin SOCAR-ın adından ezamiyyətdə olduğu müddətdə cinsi xarakterli xidmətlərin kommersiyalaşdırılmış şəkildə əldə olunmasını və göstərilməsini qadağan edir. SOCAR həmçinin korrupsiyanın xüsusi forması olan cinsi xarakterli əlaqələri hədə-qorxu ilə tələb etmə (şantaj) əməllərini qadağan edir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ SOCAR-ın hər hansı obyektində, habelə həmin obyektlərdə olub-olmamasından asılı olmayaraq iş vaxtınızda və ya SOCAR-ın adından ezamiyyətdə və ya tapşırığın icrası ilə bağlı başqa səfərdə olduğunuz müddətdə heç vaxt cinsi xarakterli xidmətləri təklif etməmək, təqdim etməmək, tələb etməmək, əldə etməmək;
- ✓ Heç vaxt başqalarına cinsi xidmətlərin təklif, təqdim, tələb, əldə edilməsi üçün təsir göstərməmək və başqalarının əvəzini ödədiyi cinsi xidmətləri heç vaxt qəbul etməmək;
- ✓ Heç vaxt SOCAR-a vəd edilmiş və ya SOCAR-a verilmiş və yaxud bu cür görüntü yaradan fayda müqabilində təklif və ya tələb edilən cinsi xidmətləri hədə-qorxu ilə tələb (şantaj) etməmək, yaxud belə xidmətlərə razılıq verməmək.

## 4. ƏMLAK VƏ DİGƏR AKTİVLƏRİMİZİN QORUNMASI

### AKTİVLƏR

İşinizi səmərəli şəkildə yerinə yetirə bilməyiniz üçün Sizə aktivlərimizi etibar edirik. İnanırıq ki, aktivlərimizdən düzgün istifadə edəcək və onları itki, zədələnmə, talama, israf və yanlış istifadədən qoruyacaqsınız. SOCAR-ın aktivlərinə bunlarla məhdudlaşmayaraq, fiziki aktivlər, məsələn mülkiyyət və digər hüquqlar əsasında SOCAR-a məxsus torpaq sahələri, zavodlar, bina və qurğular (o cümlədən onların mühafizə zonaları), avadanlıqlar, kompüterlər, eləcə də rəqəmsal aktivlər, qeyri-maddi aktivlər, əmlak hüquqları və maliyyə aktivləri daxildir.

Biz hər birimiz "Hesabatlılıq" Dəyərimizə uyğun olaraq aktivlərimizin qorunmasına cavabdehik.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ SOCAR-ın aktivlərini itki və ya zərərdən qorumaq;
- ✓ SOCAR-ın aktivlərindən (məsələn, torpaq sahəsi, bina, kompüter və sair) şəxsi kommersiya və ya digər şəxsi məqsədlər üçün istifadə etməmək;
- ✓ Şirkətin əmlakının icazəsiz götürülməsinin talama hesab edildiyini və bunun əmək müqaviləsinə xitam verilməsi və dövlət orqanlarına məlumat verilməsi də daxil olmaqla intizam tənbeh tədbirlərinin tətbiqi ilə nəticələnə biləcəyini yadda saxlamaq;
- ✓ Şirkətin kredit kartlarından (vəzifənizə uyğun olaraq sizə təqdim olunarsa) yalnız ağlabatan və təsdiq edilmiş biznes xərcləri üçün istifadə etmək və şəxsi istifadə üçün onlardan yararlanmamaq;
- ✓ Şirkət vəsaitləri və əmlakının əldə edilməsi üçün istifadə olunan sənədlərin düzgünlüyünü və tamlığını təmin etmək. Qeyri-dəqiq və ya müvafiq qaydada əsaslandırılmamış sənədlərin (sifariş, icazə, uçot sənədləri və sair) saxtakarlıq kimi qiymətləndirilə biləcəyini yadda saxlamaq;
- ✓ Sənədləri qanunsuz olaraq gizlətməmək, onları təhrif etməmək və məhv etməmək.

### İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ VƏ İT SİSTEMLƏRİ

Şirkətimizə və maraqlı tərəflərə məxsus konfidensial (gizli) və həssas məlumatların konfidensiallığının (gizliliyinin) saxlanılmasını və qorunmasını təmin etmək məqsədilə biz "Hesabatlılıq" Dəyərimizə uyğun olaraq öz müqavilə öhdəliklərimizə həmişə əməl edirik.

Bura SOCAR-ın aktivlərinin qorunması üçün olduqca vacib olan informasiya təhlükəsizliyi, o cümlədən kibertəhlükəsizlik təhdidləri barədə məlumatlılıq və müvafiq səylərin göstərilməsi daxildir. Xüsusilə İşçilərimizin bu sahədə birinci və ən öndə olan müdafiə xəttimizi təşkil etdiyini nəzərə alaraq, SOCAR-ın işçilərindən bu sahədə ayıq olması ilə bağlı gözləntimiz var.

İT sistemlərimizdə hazırlanan və saxlanılan informasiya SOCAR-ın mülkiyyətidir və bu məlumatlara əlçatanlıq qüvvədə olan qanunvericiliyə uyğun olaraq təmin edilə bilər. Kiberhücumlar və zərərli fəaliyyət SOCAR üçün davamlı təhlükədir və buna görə də belə və ya digər oxşar riskləri aşkar etmək məqsədilə İT sistemlərimiz, İT həllərimiz və avadanlıqlarımızdan istifadəyə monitorinq (nəzarət) həyata keçirilə bilər. Bura uyğun olmayan veb-saytlara əlçatanlığın bloklanması (qarşısının alınması) və İT sistemlərimiz tərəfindən ötürülən və ya onlarda saxlanılan məlumatlara daxil olma və onların ələ keçirilməsi daxildir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ SOCAR-ın konfidensial informasiyasının və fərdi məlumatların qorunması üzrə və SOCAR-da informasiya təhlükəsizliyinin və kiber təhlükəsizliyin təminatı üzrə daxili sənədlərinə əməl etmək;
- ✓ Şirkətin və ya üçüncü tərəfin (kənar şəxs və ya qurumun) konfidensial və ya məxfi məlumatları ilə işləyərkən və ya onlardan istifadə edərkən ehtiyatlı olmaq və belə məlumatları yalnız onları qəbul etməyə səlahiyyəti çatan şəxslər ilə paylaşmaq;
- ✓ Rəqiblər, təchizatçılar və digər tərəflər kimi çıxış edən kənar qurumların (şəxslərin) konfidensial və mülkiyyət məlumatlarına, o cümlədən əqli mülkiyyətinə, məsələn müəlliflik hüquqları və ticarət nişanlarına hörmət etmək;
- ✓ İstifadəçi kimliyi və şifrələrimizin təhlükəsiz şəraitdə olduğundan və gözlə görünən yerlərdə, məsələn masalarımızın üstündə saxlanmadığından əmin olmaq;
- ✓ İT sistemlərimizdən qeyri-qanuni və ya qeyri-etik fəaliyyətlər, o cümlədən təhqiredici materialın yüklənməsi və ya göndərilməsi üçün heç vaxt istifadə etməmək;
- ✓ Kibertəhlükəsizlik təhdidlərinə, o cümlədən hücumlar və fırıldaqçılıqlara, məsələn “fişinqə” qarşı ayıq olmaq və hər hansı belə hal barədə dərhal məlumat vermək;
- ✓ Xüsusilə konfidensial və məxfi məlumatlarla işləyərkən SOCAR-ın məlumatlarını qorumaq
- ✓ SOCAR-ın konfidensial məlumatlarını ictimai forumlarda və ya sosial mediada paylaşmamaq
- ✓ SOCAR-ın təhlükəsizlik nəzarəti tədbirlərindən yayınmamaq;
- ✓ Daxili sənədlərimizə uyğun olaraq, İT sistemlərimizdən şəxsi istifadəni icazə verilən hədlərlə məhdudlaşdırmaq.

## İNSAYDER İNFORMASİYASI

SOCAR-ın istiqrazlarına və ya digər maliyyə alətlərinə yatırımların nəzərdən keçirilməsi zamanı üçüncü tərəflər (kənar qurumlar və şəxslər) üçün uyğun hesab olunan və ictimaiyyətə açıq olmayan istənilən SOCAR daxili məlumatlardan istifadə qadağandır. Belə məlumatlar SOCAR-ın “İnsayder informasiyası” (və ya “İnsayd informasiyası”) hesab olunur və bu məlumatlarla ticarət etmək və ya onları hər hansı üçüncü tərəflərlə (kənar qurumlar və şəxslərlə) paylaşmaq qeyri-qanunidir və sözügedən tələb pozulduğu təqdirdə, ciddi cəzaların tətbiqi ilə nəticələnə bilər.

Siz həmçinin SOCAR və SOCAR Qrup Müəssisələri haqqında ictimaiyyətə açıq olmayan və üçüncü tərəflər (kənar qurumlar və şəxslər) üçün maraq kəsb edən məlumatlardan xəbərdar ola bilərsiniz. Belə məlumatların da üçüncü tərəflərlə (kənar qurumlar və şəxslərlə) ticarəti və ya paylaşılması qəti qadağandır.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ İctimaiyyətə açıq olmayan məlumatları qorumaq və onları paylaşmamaq;
- ✓ İnsayder informasiyasına sahib olduğunuz təqdirdə, heç vaxt SOCAR-ın istiqrazlarını, digər maliyyə alətlərini almamaq və ya satmamaq;
- ✓ Həqiqətə uyğun olmayan məlumatları paylaşmaqla SOCAR istiqrazlarının və ya digər maliyyə alətlərinin qiymətini manipulyasiya etməyə çalışmamaq;

- ✓ İnsayder informasiyasına sahib olduğunuz təqdirdə üçüncü tərəflər (kənar qurumlar və şəxslərlə) vasitəsilə onlarla ticarət etməmək.

Bununla əlaqədar hər hansı şübhələriniz varsa, lütfən SOCAR-ın Uyğunluq departamenti ilə əlaqə saxlayın.

## 5. TƏTBİQ ETDİYİMİZ FƏALİYYƏT TƏRZİ

Biz SOCAR olaraq həm Azərbaycan Respublikasında, həm də beynəlxalq miqyasda əhəmiyyətli fəaliyyət həyata keçiririk. Biz fəaliyyət göstərdiyimiz yerlərin icmaları ilə möhkəm, dürüst və uzunmüddətli əlaqələr qurmağın vacib olduğuna inanırıq.

Biznes fəaliyyətimizdə qüvvədə olan qanunvericiliyə və qaydalara əməl edir və etik, dayanıqlı və sosial məsuliyyətli tərzdə hərəkət edirik. İnsan hüquqlarına hörmət bizim fəaliyyətimizin ayrılmaz hissəsini təşkil edir.

Biz dünyaya və ərazilərində fəaliyyət göstərdiyimiz icmalara hörmət edirik. Bura Üçüncü tərəf xidmət təminatçıları, Biznes tərəfdaşları, Birgə Müəssisələr, müştərilər, Dövlət qurumlarının vəzifəli şəxsləri, rəqiblər və ya digər maraqlı tərəflərlə qarşılıqlı əlaqələr daxildir. Davamlı inkişafa töhfə vermək məqsədilə dövlət qurumları və icmalarla birgə işləyir və fəaliyyət göstərdiyimiz ərazilərin icmalarına fayda verməyə çalışırıq.

Biz təmiz enerjinin və xalis sıfıra keçidin əhəmiyyətini dərk edir və SOCAR-ın davamlı inkişaf siyasətinin bir hissəsi olaraq bu əhəmiyyətli təşəbbüsün icrası istiqamətində digər cəlb edilmiş qruplarla birlikdə işləyirik.

Üçüncü tərəflərlə (kənar şəxs və qurumlarla) istənilən qarşılıqlı təmas zamanı risklər düzgün idarə olunmalı və müvafiq sistemlərin mövcudluğu təmin olunmalıdır. Bu zaman xüsusilə vurğulamaq istədiyimiz bir məqam odur ki, biz fəaliyyətimizdə korrupsiyanın hər hansı formasına (o cümlədən rüşvətxorluğa) dözümsüzlük nümayiş etdiririk.

### KORRUPSİYAYA QARŞI MÜBARİZƏ

SOCAR olaraq istənilən cinayət növünə, o cümlədən dələduzluq, rüşvətxorluq və korrupsiyanın digər növləri, işin yüngülləşdirilməsinə görə qeyri-rəsmi az- məbləğli ödənişlər ("facilitation payments”) və anti-inhisar qanunlarının pozulmasına qarşı dözümsüzlük siyasətini həyata keçiririk. SOCAR-ın fəaliyyətində iştirak edən hər kəs fəaliyyət göstərdiyimiz ölkələrin, eləcə də ölkələrin ərazilərindən kənar tətbiq edilən korrupsiyaya (o cümlədən rüşvətxorluğa) qarşı mübarizəyə dair qanunlara əməl etməlidir.

Biz fəaliyyətimizin həyata keçirilməsində korrupsiya riskinin qarşısının alınması və ona qarşı mübarizəyə dair qaydalar və nəzarət tədbirləri, o cümlədən “SOCAR-ın Korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınmaya qarşı mübarizə siyasəti”ni qəbul etmişik.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ Korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınma ilə mübarizə siyasətinə əməl etmək;
- ✓ Heç vaxt rüşvət və ya korrupsiyanın digər növü ilə məşğul olmamaq, rüşvət təklif və qəbul etməmək, belə halların baş verməsinə icazə və ya yol verməmək;
- ✓ İstinad edilən Siyasətdə göstərilən ssenarilər də daxil olmaqla, hər hansı şəxsə və ya hər hansı şəxsdən (istənilən Dövlət qurumunun vəzifəli şəxsi daxil olmaqla) birbaşa və ya dolayı yolla Hər

Hansı Bir Dəyəri müvafiq olaraq təqdim etməyə, istəməyə, tələb etməyə və qəbul etməyə səy göstərməmək, bunlara dair təklif verməmək, vəd verməmək, təmin etməmək və icazə verməmək;

- ✓ İşin yüngülləşdirilməsinə görə qeyri-rəsmi az məbləğli ödənişlərdən ("facilitation payments") uzaq durmaq;
- ✓ İş prosesində üzləşdiyimiz riskləri anlamaq və idarə edə bilmək üçün korrupsiyaya qarşı mübarizə üzrə təlimlərdə iştirak etmək;
- ✓ SOCAR-ı təmsil edən və ya onun adından fəaliyyət göstərən bütün Biznes tərəfdaşları və (risk reytinqlərindən asılı olaraq) Üçüncü tərəf xidmət təminatçılarının Korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınmaya qarşı mübarizə ilə bağlı tələblərimizin başa düşülməsi və bu tələblərə əməl edilməsi öhdəliyi götürülməsini təmin etmək üçün çalışmaq.

İstinad: "SOCAR-ın Korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınmaya qarşı mübarizə siyasəti"

## UÇOT, QEYDİYYAT VƏ HESABAT İŞİNİN DƏQİQ APARILMASI

Biz şirkət məlumatlarının dürüst, dəqiq və obyektiv qeydiyyatını aparır və hesabatını təqdim edirik. Bura maliyyə və qeyri-maliyyə məlumatları daxildir. Qeydiyyatın dəqiqliyi biznes qərarlarının düzgün qəbul edilməsi və tələblərə əməl edilməsi baxımından vacibdir. Məlumatların saxtalaşdırılmasına və ya faktların təhrif edilməsinə heç bir halda dözümlü yanaşıla bilməz. SOCAR dələduzluq və saxtakarlığın bütün növlərinə qarşı dözümsüz yanaşır.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ Uçot və qeydiyyat işini dəqiq və tam şəkildə aparmaq. Bura həm maliyyə, həm də qeyri-maliyyə məlumatları, məsələn, ətraf mühitlə bağlı məlumatlar və əməliyyat hesabatları daxildir
- ✓ Uçot və qeydiyyat kitablarımız və reyestrlərimizə həqiqətə uyğun olmayan və ya çaşdırıcı məlumatlar daxil etməmək
- ✓ Maliyyə və qeyri-maliyyə qeydiyyat məlumatlarının hazırlanması zamanı, bütün hesabatlarımızda və ictimai kommunikasiya fəaliyyətlərimizdə istifadə edilən informasiyanın tam, ədalətli, dəqiq və başa düşülən olmasını təmin etmək üçün yüksək diqqət və qayğı nümayiş etdirmək
- ✓ Araşdırma və ya auditə cavab olaraq və ya belə araşdırma və auditin keçirilməsini gözləyərkən heç bir məlumatı məhv etməmək

## CİNAYƏT YOLU İLƏ ƏLDƏ EDİLMİŞ ƏMLAKIN LEQALLAŞDIRILMASI, CİNAYƏTLƏRİN MALİYYƏLƏŞDİRİLMƏSİ VƏ VERGİDƏN YAYINMAYA QARŞI MÜBARİZƏ

Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması qanunsuz fəaliyyətdir və buraya, cinayət fəaliyyətindən, məsələn narkotik vasitələrin qanunsuz dövriyyəsindən əldə edilən külli miqdarda pul vəsaitlərinin qanuni mənbədən gəldiyi görüntüsünü yaradan proses də daxildir. Cinayətlərin maliyyələşdirilməsinə, cinayətlərin, o cümlədən terrorçuluq və kütləvi qırğın silahların yayılmasının dəstəklənməsi məqsədilə qanuni vəsaitlərin istifadəsi daxildir.

SOCAR satınalma siyasəti, qarşı tərəflərin seçilməsi, yoxlanması və ödəniş prosedurları vasitəsilə cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və cinayətlərin maliyyələşdirilməsinin qarşısını almağa çalışır.

Biz heç kəsə vergidən yayınmaq və ya vergi qanunvericiliyini pozmağa hər hansı imkan yaratmaq üçün kömək etmirik.

**Bunları nəzərə alaraq aşağıdakılar zəruridir:**

- ✓ "SOCAR-ın Korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınmaya qarşı mübarizə siyasəti"nə əməl etmək;
- ✓ Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdıırılmasına və cinayətlərin maliyyələşdirilməsinə göz yummamaq, buna şərait yaratmamaq və dəstəkləməmək, eləcə də qeyri-qanuni fəaliyyətlə əlaqəsindən şübhələndiyimiz şəxslərlə iş görməmək;
- ✓ Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınma risklərinin idarə edilməsi üçün Üçüncü tərəf xidmət təminatçıları barəsində risklər hesablanmaqla kompleks yoxlama aparmaq və onların dürüstlüyünü qiymətləndirmək;
- ✓ Vergidən yayınma üçün heç vaxt heç kəsə kömək etməmək;
- ✓ Şübhələriniz olarsa, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınma məsələlərini, eləcə də SOCAR üçün belə risklərin necə minimuma endirilməli olduğunu daha yaxşı başa düşmək üçün Uyğunluq departamentinə müraciət etmək.

İstinad: "SOCAR-ın Korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınmaya qarşı mübarizə siyasəti"

## HƏDİYYƏLƏR, ƏYLƏNCƏ, HƏVƏSLƏNDİRMƏLƏR, QONAQPƏRVƏRLİK VƏ QONAQLAMA

Qanuni biznes məqsədləri üçün Hədiyyələrin mübadiləsi və Əyləncəli tədbirlərdə iştirak üçüncü tərəflərlə (kənar şəxs və qurumlarla) konstruktiv münasibətlərin qurulmasını möhkəmləndirə bilər. Lakin, Hədiyyələrin verilməsi və ya qəbul edilməsi və Qonaqpərvərlik müəyyən hallarda rüşvətxorluq və korrupsiyanın digər halı kimi qiymətləndirilə bilər, biz Hədiyyələrin verilməsi və qəbul edilməsi, eləcə də əyləncəli tədbirlərdə iştirakla bağlı ciddi məhdudiyyətlər tətbiq edirik.

Bir qayda olaraq, biz hər hansı güzəştli rəftar və ya bizneslə bağlı hər hansı qərara təsir göstərmək müqabilində Hədiyyə və ya Əyləncəni təqdim etmir və ya qəbul etmirik.

Digər bir sahə Dövlət qurumlarının vəzifəli şəxslərinin "qonaqlanması"dır ki, buraya Dövlət qurumlarının vəzifəli şəxslərinə SOCAR-ın məhsul və ya texnologiyalarını nümayiş etdirmək və ya müəyyən biznes gündəliyini müzakirə etmək məqsədilə onların SOCAR-ın ofisinə, ərazisinə və ya digər yerinə səfərləri ilə əlaqədar xərclərin qarşılanması daxildir. İstənilən belə qonaqlama ilə bağlı əvvəlcədən SOCAR-ın Uyğunluq departamentindən razılıq alınmalıdır

SOCAR tərəfindən bununla bağlı "Hədiyyələr, əyləncə, həvəsləndirmələr, qonaqpərvərlik və qonaqlama siyasəti" qəbul edilmişdir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ "Hədiyyələr, əyləncə, həvəsləndirmələr, qonaqpərvərlik və qonaqlama siyasəti"nə, o cümlədən Dövlət qurumlarının vəzifəli şəxslərinin qonaqlanmasına dair qaydalara əməl etmək;
- ✓ Yalnız Tanıtım xarakterli (adətən şirkət loqosu ilə), dəbdəbəli olmayan Hədiyyələri təklif etmək, vermək və ya qəbul etmək və eyni zamanda yalnız arxasında aydın iş səbəbi olan sadə Əyləncəni/Qonaqpərvərliyi təklif etmək, təqdim etmək və ya qəbul etmək;
- ✓ Hədiyyə və ya Əyləncənin/Qonaqpərvərliyin qəbulu və ya təklif edilməsinin başqaları tərəfindən necə qavranılacağı barədə özünə sual vermək və heç vaxt qaydalara zidd üstünlük kimi qavranılan və ya qavranıla bilən bir şeyi təklif etməmək və ya qəbul etməmək;

- ✓ Rüşvət kimi qəbul ediləcək və ya nalayiq, cinsi yönümlü və ya başqa cür qaydalara zidd olan Hədiyyə və ya Əyləncəni / Qonaqpərvərliyi heç vaxt təklif etməmək, təqdim etməmək və ya qəbul etməmək;
- ✓ Tender və ya hər hansı digər satınalama müsabiqəsi prosesində iştirak etdiyiniz və ya belə prosesə təsir göstərmək imkanlarınız olduğu halda heç vaxt üçüncü tərəflərə (kənar şəxs və qurumlara) hər hansı Hhədiyyə və ya Əyləncəni /Qonaqpərvərliyi təklif etməmək, təqdim etməmək və ya qəbul etməmək;
- ✓ Dövlət qurumlarının vəzifəli şəxslərinin qonaqlanmasına, məsələn səyahət xərclərinin qarşılanmasına razılıq verməzdən əvvəl SOCAR-ın Uyğunluq departamentinin razılığını almaq .

İstinad: "SOCAR-ın Hədiyyələr, əyləncə, həvəsləndirmələr, qonaqpərvərlik və qonaqlama siyasəti"

## MARAQLARIN TOQQUŞMASI

Biz SOCAR üçün çalışan hər bir kəsin şəxsi həyatına və şəxsi işlərini idarə etmək hüququna hörmətlə yanaşırıq. Lakin Sizin şəxsi maraqlarınız SOCAR-ın maraqlarına müdaxilə etdiyi təqdirdə maraqların toqquşması baş verir ki, bu da Sizin şirkət daxilində obyektiv qərar qəbul etməyinizə təsir göstərə bilər. Mümkün olduğu qədər, maraqların toqquşmasından yayınmaq lazımdır.

Belə hallar baş verdiyi təqdirdə, həmişə diqqətlə idarə edilməlidir. Hətta maraqların toqquşmasının görüntüsünü yaradan hallar belə zərərli ola bilər və onlara qarşı mübarizə aparmaq lazımdır.

SOCAR tərəfindən şəxsi və korporativ maraqların toqquşması hallarının idarə olunmasını təsvir edən "Maraqların toqquşması siyasəti" qəbul edilmişdir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ "SOCAR-ın Maraqların toqquşması siyasəti"nə əməl etmək. Ümumi təlimat olaraq, maraqların toqquşması o zaman baş verir ki, Sizin və ya Sizin Qohumunuzun (və ya Sizin Yaxın münasibətdə olduğunuz şəxsin) şəxsi maraqları SOCAR-ın maraqlarına və ya SOCAR qarşısında üzərinizə götürdüyünüz vəzifələrin icrasına müdaxilə edir və bu da nəticə etibarilə Sizin SOCAR daxilində obyektiv qərar qəbul etməyinizə təsir göstərir. "Maraqların toqquşmasına dair siyasət"də maraqların toqquşması hallarının növləri və SOCAR-ın tələbləri ətraflı təsvir edilir
- ✓ Açıq olmaq, hər bir faktiki, potensial maraqlar toqquşması hallarını və maraqlar toqquşması görüntüsünü yaradan halları açıqlamaq və öz Rəhbərinizlə müzakirə etmək (daha ətraflı "Maraqların toqquşması siyasəti"ndə təsvir olunur)

İstinad: "SOCAR-ın Maraqların toqquşması siyasəti"

## ÜÇÜNCÜ TƏRƏF XİDMƏT TƏMİNATÇILARI VƏ BİZNES TƏRƏFDAŞLARI

SOCAR yüksək etik biznes davranışı standartları nümayiş etdirən və bizim təhlükəsizlik, etika və uyğunluq üzrə sadiqliyimizi bölüşən Üçüncü tərəf xidmət təminatçıları (işçiləri də daxil olmaqla) və SOCAR-ın və ya SOCAR Qrup Müəssisəsi adından çalışan digər şəxslər, eləcə də Biznes tərəfdaşları ilə işləməyə dəyər verir və onları Kodeksimizin tələblərinin pozulması halları barədə SOCAR-ın Etika və Uyğunluq məsələləri üzrə Yardım Xəttinə məlumat bildirməyə çağırır. Üçüncü tərəflər (kənar şəxs və qurumlar) bizim iş görmək qabiliyyətimiz baxımından çox vacibdir, lakin, eyni zamanda, bizim üçün işgüzar nüfuz, əməliyyat və hüquqi risklər yarada bilərlər.

Buna görə də, biz, özündə qarşıtərəfin kompleks yoxlanmasını ehtiva edən obyektiv seçim prosesindən istifadə etməklə, onların seçimini ehtiyat və diqqətlə həyata keçiririk.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ Satınalma və təsdiq alma prosedurlarımıza əməl etmək;
- ✓ Hər hansı işgüzar münasibət qurmazdan və ya belə münasibətlərə düzəliş etməzdən əvvəl qarşı tərəfin kompleks yoxlanması ilə bağlı bizim prosedurlarımıza əməl etmək. Qarşı tərəfin kompleks yoxlanmasına korrupsiya (o cümlədən rüşvətxorluq), cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi, vergidən yayınma, maraqların toqquşması, insan hüquqlarının pozulması, inhisarçılıq, haqsız rəqabət və beynəlxalq ticarət məhdudiyyətləri ilə bağlı risklərin qiymətləndirilməsi daxildir;
- ✓ Üçüncü tərəf xidmət təminatçılarımıza və Biznes tərəfdaşlarımıza gözləntilərimizi aydın şəkildə çatdırmaq və bu gözləntilərin yerinə yetirilib-yetirilmədiyini mütəmadi olaraq yoxlamaq;
- ✓ Üçüncü tərəflərin (kənar şəxs və qurumların) yol verdiyi pozuntular barədə Rəhbərinizə və ya Kodeksimizdə təqdim olunan məlumat vermə kanallarından hər hansı biri vasitəsilə məlumat ötürmək.

## İNHİSARÇI DAVRANIŞ

SOCAR-da hər kəs rəqabət qanunvericiliyinə riayət etməlidir. Bu qanunvericilik bəzi ölkələrdə, o cümlədən Azərbaycanda anti-inhisar və ya oxşar qanunlar kimi tanınır. Belə qanunlar rəqabətə zidd davranışları qadağan etməklə rəqabəti qoruyan qanunlardır. Bu qanunların bəziləri, məsələn, Avropa İttifaqı və ABŞ-a aid olanlar, milli sərhədlər xaricində də tətbiq olunur. Rəqabət qanunvericiliyi mürəkkəb olmaqla yanaşı, həm də ayrı-ayrı hallara münasibətdə spesifik müddəaları özündə ehtiva edir. Bu səbəbdən suallarınız olduğu təqdirdə, SOCAR-ın Uyğunluq departamentinə müraciət etməyiniz xahiş olunur.

**Bununla əlaqədar olaraq, aşağıdakılar zəruridir:**

- ✓ Qiymətlərin əvvəlcədən müəyyən edilməsi, müsabiqə təkliflərinin manipulyasiya edilməsi, müştərilərin bölüşdürülməsi və/və ya təchizatın məhdudlaşdırılması üçün rəqiblərlə hər hansı formada razılaşma və ya anlaşmada iştirak etməmək;
- ✓ Rəqiblərlə rəqabət baxımından həssas olan məlumatları paylaşmamaq;
- ✓ Bazardakı hökmran mövqedən sui-istifadə etməmək.

## BEYNƏLXALQ TİCARƏT MƏHDUDİYYƏTLƏRİ

Digər beynəlxalq miqyasda fəaliyyət göstərən şirkətlər kimi, biz də milli və beynəlxalq səviyyədə ticarətlə bağlı tətbiq olunan uyğunluq tələblərinə əməl etməliyik. Ticarət tələblərinə uyğunluq malların, texnologiyanın, proqram təminatının və xidmətlərin idxalı, ixracı və daxili ticarətini, habelə beynəlxalq sanksiya və məhdudlaşdırıcı ticarət təcrübələrini tənzimləyən qaydalara əməl edilməsini nəzərdə tutur.

Beynəlxalq ticarət məhdudiyyətləri və sanksiyaları adətən xüsusi ölkələr, iqtisadi sektorlar, hədəflənmiş Müəssisələr və ya fərdlərə şamil olunur. Bəzi məhdudlaşdırılmış malların, texnologiyanın və proqram təminatının ixracı və ya onlarla bağlı ölkədaxili əməliyyatlara dair ixrac nəzarəti tədbirləri də geniş tətbiq olunur.

Ticarət məhdudiyyətləri və ixrac nəzarəti tədbirlərinin pozulması ciddi nəticələrə səbəb ola bilər ki, buna da cərimə və azadlıqdan məhrumetmə növündə cəzalar daxildir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ “SOCAR-ın Qlobal sanksiyalar siyasəti”nə əməl etmək;

- ✓ Sizdən sanksiya və ya məhdudlaşdırıcı tədbirlər tətbiq olunan ölkə, sənaye, qurum və ya fiziki şəxslə işləməyə dair sorğu olunduqda, dərhal SOCAR-ın Uyğunluq departamenti ilə məsləhətləşmə aparmaq;
- ✓ Biznes tərəfdaşlarınızı, Üçüncü tərəf xidmət təminatçılarınızı və digər müvafiq tərəfləri (onların mülkiyyətçiləri də daxil olmaqla) məhdudlaşdırma tətbiq edilmiş tərəflərin siyahısı ilə tutuşdurmaqla yoxlamadan keçirmək (bu siyahı qarşıtərəfin SOCAR tərəfindən kompleks yoxlama prosesinin bir hissəsini təşkil edir);
- ✓ İdxal və ya ixrac üçün məhsul və texnologiyanın əvvəlcədən təsnifatlandırıldığına əmin olmaq. Lisenziyalaşdırma tələblərini müəyyən etmək üçün aidiyyəti ölkənin idxal/ixrac nəzarət siyahısından istifadə etmək. Bütün tələb olunan etiketlərin, sənədlərin, lisenziyaların və təsdiqlərin yerində olduğundan əmin olmaq. Yardıma ehtiyac olduğu təqdirdə Uyğunluq departamenti ilə əlaqə saxlamaq;
- ✓ Əməliyyatda iştirak edən bütün tərəfləri məhdudlaşdırma tətbiq edilmiş tərəflərin müvafiq siyahısı əsasında yoxlanılmasını təmin etmək.

İstinad:

“SOCAR-ın Qlobal sanksiyalar siyasəti”

## KONFİDENSİALLIQ VƏ FƏRDİ MƏLUMATLARIN QORUNMASI

SOCAR öz işçilərinin, eləcə də işbirliyində olduğu üçüncü tərəflərin (kənar şəxs və qurumların), o cümlədən müştərilərinin konfidensiallıq (gizlilik) hüquqlarına hörmətlə yanaşır. Biz fərdi məlumatlardan yalnız müvafiq məqsədlər üçün lazım olduğu hallarda istifadə edir və qüvvədə olan qanunlara əməl edirik.

Fərdi məlumatlar dedikdə birbaşa və ya dolayı yolla fiziki şəxsləri, o cümlədən SOCAR-ın işçilərini, podratçılarını, müşahidə (direktorlar) şurasının üzvlərini, səhmdarlarını, müştərilərini və SOCAR-ın işbirliyində olduğu hər kəsin eyniləşdirilməsinə imkan verən məlumatlar başa düşülür. Nəzərə alaq ki, konfidensiallığa dair qanunlar fəaliyyət göstərdiyiniz yerdən asılı olaraq əhatə dairəsi və mürəkkəbliyinə görə fərqlənir, bu səbəbdən fəaliyyət göstərdiyimiz yurisdiksiyalarda (ölkələrdə) fərdi məlumatların qorunması ilə bağlı yerli mütəxəssislərdən məsləhət və təlimat əldə olunmalıdır.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ SOCAR-ın konfidensial informasiyasının və fərdi məlumatların qorunması üzrə daxili sənədlərinə əməl etmək;
- ✓ Hər kəsin şəxsi həyat toxunulmazlığı hüququna hörmətlə yanaşmaq. Əgər fərdi məlumatlarla işləmək işinizin bir hissəsini təşkil edirsə, o zaman fərdi məlumatların işlənməsinə dair daxili tələblərimizlə lazımi qədər tanış olunmasını və onlara əməl edilməsini təmin etmək;
- ✓ Fərdi məlumatları toplayarkən, saxlayarkən, onlardan istifadə edərkən, onları emal edərkən, kommunikasiya (ötürmə) edərkən və açıqlayarkən maksimum dərəcədə diqqətlə yanaşmaq, belə məlumatların yalnız qanuni iş məqsədləri üçün istifadə olunmasına nəzər yetirmək;
- ✓ Topladığımız, istifadə etdiyimiz və emal etdiyimiz fərdi məlumatlara münasibətdə açıq və şəffaf olmaq.

## YERLİ İCMALAR VƏ QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARI

SOCAR fəaliyyət göstərdiyi yerlərdə müsbət dəyişikliyə nail olmaq istəyindədir. SOCAR ən yüksək etik standartlara riayət edir və fəaliyyət göstərdiyi yerlərin icmalarının etimadını qazanacaq davranışlar sərgiləyir. SOCAR yerli icmalarla, eləcə də həyata keçirdiyi fəaliyyətdə qanuni maraqları olan qeyri-hökumət təşkilatları (QHT) kimi qurumlar ilə açıq və səmimi əlaqələr qurmağa çalışır. SOCAR qarşılıqlı

əlaqədə olduğu icmaların, QHT-lərin və digər təşkilatların hüquqlarına, habelə onları təmsil edən şəxslərin ləyaqətinə hörmətlə yanaşır və onları Kodeksimizin tələblərinin pozulması halları barədə SOCAR-ın Etika və Uyğunluq məsələləri üzrə Yardım Xəttinə məlumat bildirməyə çağırır.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ İşlədiyiniz yerlərdə tətbiq olunan yerli qanun və qaydalara əməl etmək;
- ✓ Kodeksimizə və hüquqi tələblərə zidd olmadığı təqdirdə yerli mədəniyyətlərə və biznes adətlərinə uyğun fəaliyyət göstərmək;
- ✓ İcma üzvlərinə hörmət və ləyaqətlə yanaşmaq;
- ✓ QHT-lərlə ünsiyyətə daxil olmazdan və ya onlarla əlaqə qurmazdan əvvəl Rəhbərinizi və yerli mətbuat xidmətini məlumatlandırmaq və onlarla məsləhətləşmək.

## İNSAN HÜQUQLARI

Biz fəaliyyətimizi insan hüquqlarına və ləyaqətinə hörmət əsasında həyata keçiririk. Dəyərlərimiz insanların ayrı-seçkilik və sui-istifadədən azad yaşamaq hüquqlarını dəstəkləyir. Uşaq əməyi, insan alveri, məcburi əmək və asılı əmək kimi insan hüquqlarının pozulması hallarının aradan qaldırılmasında hər birimizin rolu var.

Biz bütün müvafiq qanun və qaydalara, o cümlədən Birləşmiş Millətlər Təşkilatının Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və Beynəlxalq Əmək Təşkilatının İşdə Əsas Prinsiplər və Hüquqlar üzrə Bəyannaməsinə, habelə Birləşmiş Millətlər Təşkilatının Biznes və İnsan Hüquqları üzrə rəhbər prinsiplərinə əməl edirik. Biz, həmçinin fəaliyyət göstərdiyimiz icmaların rifahına töhfə vermək məqsədilə müntəzəm olaraq kənar tərəfdaşlarla birgə işləyirik.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ İnsan hüquqları ilə bağlı öhdəliklərimizə əməl etmək və Üçüncü tərəf xidmət təminatçılarımız (işçiləri də daxil olmaqla) və SOCAR-ın və ya SOCAR Qrup Müəssisəsi adından çalışan digər şəxslər, Biznes tərəfdaşlarımız və işbirliyində olduğumuz digər şəxslər tərəfindən həmin öhdəliklərimizə əməl edilməsinə əmin olmaq;
- ✓ Bizim və ya Biznes tərəfdaşlarımızın əməliyyatlarında istənilən insan hüquqlarının pozulması halları barədə səlahiyyətli dövlət orqanlarına məlumat vermək,

## ŞİRKƏTDƏN KƏNAR, O CÜMLƏDƏN SOSİAL MEDİA VASİTƏSİLƏ KOMMUNİKASİYA

Kənar maraqlı tərəflərlə, o cümlədən kütləvi informasiya vasitələri, sərmayəçilər, təhlilçilər ilə kommunikasiya bizim üçün əhəmiyyətlidir. Kənar kommunikasiyalarımızın aydın və dəqiq olması vacibdir. Yalnız səlahiyyətli işçilər media və ya investisiya icmasının üzvləri ilə ünsiyyətdə olmaq hüququna malikdir.

Sosial mediadan şəxsi istifadə, konfidensiallıq öhdəliklərinin pozulmasına, məsələn, SOCAR-ın konfidensial məlumatlarının açıqlanmasına səbəb olmamalı və SOCAR-ın işgüzar nüfuzuna və ya biznes maraqlarına xələl gətirməməlidir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- ✓ Əvvəlcədən icazə alınmadığı təqdirdə SOCAR adından kənar maraqlı tərəflər ilə, məsələn, media, investorlar və s., ünsiyyətdə olmamaq;
- ✓ Kütləvi informasiya vasitələrinin sorğuları ilə qarşılaşdığınız təqdirdə, onları mətbuat xidmətinə yönləndirmək;

- ✓ SOCAR-ın təcrübəsinin üçüncü tərəflərlə (kənar şəxs və qurumlarla) bölüşmək məqsədilə SOCAR xaricində təqdimat keçirmək üçün dəvət edildiyiniz təqdirdə, belə dəvəti qəbul etməzdən əvvəl və təqdimatda istifadə edəcəyiniz materiallarla bağlı zəruri razılığı aldığınızdan əmin olmaq;
- ✓ Şəxsi sosial media hesablarınızdan konfidensial məlumatları açıqlamaq məqsədilə istifadə etməmək;
- ✓ Əgər sosial mediadan istifadə edirsinizsə, başqalarına, o cümlədən həmkarlarınıza, Biznes tərəfdaşlarına və icmalara hörmətlə yanaşmaq;
- ✓ "Göndər" düyməsini basmazdan əvvəl yaxşı düşünmək – onlayn kommunikasiyaların daimi əlçatan ola biləcəyini unutmamaq!

İstinad: "SOCAR-ın İnformasiyanın verilməsi, tədbirlərin təşkili və kommunikasiyaların idarə edilməsi haqqında" standartı

## SİYASİ FƏALİYYƏT VƏ ÖDƏNİŞLƏR

SOCAR onu maraqlandıran müxtəlif məsələlər üzrə öz mövqeyini bildirmək məqsədilə ictimai müzakirələrdə iştirak edə bilər. Belə müzakirələrdə iştirak etdikdə, SOCAR olaraq mövqeyimiz aydındır: SOCAR siyasi (partiya) fəaliyyətdə iştirak etmir və SOCAR nə pul vəsaitləri, nə də natura şəklində heç bir siyasi xarakterli ianələr etmir.

SOCAR-ın işçilərinin qanuni siyasi fəaliyyətlə məşğul olmaq hüququ var, lakin biz həmçinin SOCAR-ın maraqlarını və işgüzar nüfuzunu qorumalıyıq. Ona görə də fərdlərin öz şəxsi siyasi fəaliyyətlərini SOCAR-dakı funksiyalarından ayrı tutmaları vacibdir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir**:

- ✓ Hər hansı siyasi namizəd və ya partiyanın dəstəklənməsi və ya lobbiçilik fəaliyyəti ilə məşğul olmaq üçün şirkətin vəsaitləri və ya resurslarından istifadə etməmək;
- ✓ SOCAR-dakı vəzifənizdən istifadə edərək siyasi xarakterli ianə etmək üçün hər hansı şəxsə təsir etməyə cəhd göstərməmək;
- ✓ Siyasi fəaliyyətlərdə iştirak etmək və ya ictimai xarakterli ianələr etmək qərarı verdikdə, bunu, şəxsi səviyyədə etmək və SOCAR-la əlaqəsinin olmamasını təmin etmək;
- ✓ Nəzərə alaraq ki, siyasi fəaliyyətlər bəzən maraqların toqquşmasını yarada bilər, dövlət orqanında vəzifə tutmaq istəyiniz olduqda və ya bunu planlaşdırdıqda, mümkün ziddiyyətləri Rəhbərlərinizlə müzakirə etmək;
- ✓ Şəxsi siyasi baxış və hərəkətlərinizin SOCAR-a deyil, özünüzə aid olduğunu açıqlamaq.

## SOSİAL XARAKTERLİ SƏRMAYƏLƏR, XEYRİYYƏ YARDIMLARI VƏ SPONSORLUQ

Sosial xarakterli sərmayələr, xeyriyyə yardımları və sponsorluq fəaliyyətləri Şirkətin sosial məsuliyyət siyasətinin dəstəklənməsi məqsədilə istifadə edilə bilər. Lakin sosial xarakterli sərmayələr, sponsorluq fəaliyyətləri və xeyriyyə yardımları, xüsusilə də üçüncü tərəflərlə (kənar şəxs və qurumlarla) qarşılıqlı əlaqə zamanı, özündə müəyyən korrupsiya (o cümlədən rüşvətxorluq) riskləri daşıyır.

Sosial xarakterli sərmayələr, xeyriyyə yardımları və ya sponsorluq fəaliyyətləri fərdə və ya hüquqi şəxsə, xüsusən də Dövlət qurumunun vəzifəli şəxslərinə münasibətdə Şirkətin istədiyi tərzdə hərəkət etmək və ya hərəkətdən çəkinmək üçün əsassız təsir göstərmək məqsədilə edilə bilməz. Qarşı tərəfin kompleks yoxlanması zamanı Dövlət qurumunun vəzifəli şəxsinin hər hansı sosial xarakterli sərmayə, xeyriyyə yardımı və ya sponsorluq fəaliyyətindən birbaşa və ya dolayı şəxsi fayda götürüb-götürmədiyi bütün hallarda müəyyənləşdirilməlidir. Belə hallarda, həmin sosial xarakterli sərmayə, xeyriyyə yardımı və ya sponsorluq fəaliyyətinə icazə verilməyəcək.

“Sosial xarakterli sərmayələr, xeyriyyəçilik və sponsorluq siyasəti”mizdə əlavə təlimatlar qeyd edilir.

**Bununla əlaqədar olaraq aşağıdakılar zəruridir:**

- “Sosial xarakterli sərmayələr, xeyriyyəçilik və sponsorluq siyasəti”mizə əməl etmək;
- Sosial xarakterli sərmayələr, xeyriyyə yardımları və ya sponsorluq fəaliyyətlərini fərdə və ya hüquqi şəxsə, xüsusən də Dövlət qurumunun vəzifəli şəxslərinə münasibətdə Şirkətin istədiyi tərzdə hərəkət etmək və ya hərəkətdən çəkinmək üçün əsassız təsir göstərmək məqsədilə heç vaxt həyata keçirməmək;
- Sosial xarakterli sərmayələrə, xeyriyyə yardımlarına və sponsorluq fəaliyyətlərinə müvafiq Siyasətə uyğun olaraq daxili qaydada təsdiq edildiyi təqdirdə və yalnız qarşı-tərəfin kompleks yoxlanmasının nəticəsinə əsasən uyğun hesab edildiyi təqdirdə icazə veriləcəyinə əmin olmaq.

İstinad: “SOCAR-ın Sosial xarakterli sərmayələr, xeyriyyəçilik və sponsorluq siyasəti”

## İSTİFADƏ OLUNAN TƏRİFLƏR:

**“Birgə Müəssisə”** - SOCAR-ın və bir və ya bir neçə SOCAR-dan asılı olmayan tərəfin xüsusi biznes məqsədi ilə həyata keçirdiyi işgüzar münasibət deməkdir və burada tərəflər biznes münasibətinə maddi və qeyri-maddi aktivlərlə töhfə verir və bu münasibəti birlikdə idarə edir.

**“Biznes tərəfdaşları”** - SOCAR ilə işgüzar münasibəti olmuş və ya hazırda olan Üçüncü tərəf xidmət təminatçıları istisna olmaqla əməliyyatlar aparılan və aparılmayan lisenziya üzrə tərəfdaşlar, Bbirgə Mmüəssisə tərəfdaşları və istənilən digər üçüncü tərəflər (kənar şəxs və qurumlar) başa düşülür.

**“Hədiyyələr, Əyləncə, Qonaqpərvərlik və Tanıtım xarakterli hədiyyələr”** – “Hədiyyələr, əyləncə, həvəsləndirmələr, qonaqpərvərlik və qonaqlama siyasəti”ndə müəyyən edildiyi qaydada mənanı ifadə edir.

“Hər Hansı Bir **Dəyər”** və **“Dövlət qurumunun vəzifəli şəxsi”** – Korrupsiya, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, cinayətlərin maliyyələşdirilməsi və vergidən yayınmaya qarşı mübarizə siyasəti”ndə müəyyən edildiyi qaydada mənanı ifadə edir.

**“Qohum” –** “Maraqların toqquşması siyasəti”ndə müəyyən edilmiş mənanı ifadə edir.

**“Müəssisə”** – hər hansı dövlətin və ya yurisdiksiyanın qanunları əsasında yaxud iki və ya daha çox tərəf arasında yazılı razılaşma əsasında təsis edilmiş və ya təşkil edilmiş şirkət, korporasiya, kooperativ, məhdud məsuliyyətli cəmiyyət, tərəfdaşlıq, məhdud tərəfdaşlıq, Birgə Müəssisə (təsis edilən və ya təsis edilməyən), müəssisə, assosiasiya, trest, törəmə müəssisə, holdinq, xidmət şirkəti və ya digər hüquqi şəxs və ya təşkilat deməkdir.

**“Müqavilə əsasında cəlb olunmuş heyət”** - SOCAR-ın işçilərinə dəstək məqsədilə xidmət təchizatçısı vasitəsilə cəlb edilmiş fiziki şəxs başa düşülür. Müqavilə əsasında cəlb olunmuş heyət adətən SOCAR-ın obyektlərində işləmək məqsədilə təyin edilir və SOCAR-ın işçilərindən gündəlik iş tapşırıqlarının qəbul etmələri də daxil olmaqla, SOCAR-ın gündəlik rəhbərliyi və nəzarəti altında işləyə bilər.

**“Nəzarət”** – səsvermə hüququ verən qiymətli kağızlara sahiblik vasitəsilə, müqavilə və ya başqa formada olmasından asılı olmayaraq, Müəssisədə birbaşa yaxud dolayı yolla, idarəetmə siyasətini, rəhbərliyi həyata keçirmək səlahiyyətinə malik olmaq deməkdir.

**“Rəhbər”** – SOCAR-ın işçilərinin işinə və fəaliyyətinin səmərəliliyinə birbaşa və ya dolayı nəzarəti həyata keçirən şəxs deməkdir.

**“SOCAR”** - Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti deməkdir.

“**SOCAR Qrup**” dedikdə birlikdə SOCAR və SOCAR Qrup Müəssisələri nəzərdə tutulur.

**“SOCAR Qrup Müəssisəsi”** – nizamnamə kapitalında birbaşa və ya dolayısı ilə üstün iştirakına və ya bağlanmış müqavilə əsasında qərarlarını müəyyən edən iştirakçısı (səhmdarı) SOCAR olan Müəssisələr deməkdir.

**“SOCAR-ın Etika və Uyğunluq məsələləri üzrə Yardım Xətti”** - Azərbaycan Respublikasında SOCAR-ın daxili peşəkar heyəti tərəfindən idarə olunan və yalnız Kodeksimizdən və/və ya bu Kodeksdə istinad edilən hər hansı digər siyasət və ya prosedurlardan etik davranış və uyğunluq mövzuları ilə bağlı irəli gələn məsələlər üçün ayrılmış ethics@socar.az elektron poçt ünvanı və SOCAR-ın korporativ portalının müvafiq səhifəsi deməkdir.

**“SOCAR-ın işçiləri”** və ya **“İşçilərimiz”** – SOCAR və SOCAR Qrup Müəssisələri tərəfindən əmək müqaviləsi əsasında işə götürülən bütün şəxslər, o cümlədən SOCAR prezidenti və vitse-prezidentləri, SOCAR-ın, SOCAR Qrup Müəssisələrinin rəhbərləri, digər vəzifəli şəxsləri və işçiləri deməkdir.

**“Uyğunluq departamenti”** dedikdə SOCAR-ın Azərbaycan Respublikasının Bakı şəhərində yerləşən Baş ofisində etika və uyğunluq üzrə mütəxəssislərdən ibarət Uyğunluq departamenti nəzərdə tutulur.

**“Üçüncü tərəf xidmət təminatçıları”** - SOCAR-ın müntəzəm və ya birdəfəlik əsasda işgüzar münasibətdə olduğu və ya işgüzar münasibətin qurulması niyyətində olduğu hər hansı fiziki şəxs və/yaxud Müəssisə deməkdir. Üçüncü tərəf xidmət təminatçılarına aşağıdakılar aiddir (lakin bununla məhdudlaşmadan): konsultantlar, nümayəndələr, məsləhətçilər, podratçılar, xidmət podratçıları və ya oxşar vasitəçilər, biznesin inkişafı üzrə təmsilçilər/agentlər/məsləhətçilər, daşıma agentləri, gömrük məsləhətçiləri, satış agentləri, ekspeditorlar və “rəsmiyyətin hədləri üzrə agentlər”, daşınmaz əmlak agentləri/brokerlər, hüquqşünaslar, mühasiblər, vergi məsləhətçiləri və siyasi məsləhətçilər.

**“Yaxın münasibət” –** Maraqların Toqquşması Siyasətində müəyyən edilmiş mənanı ifadə edir.

Kodeksimiz SOCAR-ın Müşahidə Şurası tərəfindən təsdiq edilmişdir. Kodeksimizdə hər hansı istisnalar, əlavə və ya düzəlişlər Müşahidə Şurası tərəfindən təsdiq edilir.

Kodeksimiz əmək fəaliyyətiniz ilə bağlı şərtləri dəyişdirmir və Kodeksimiz SOCAR ilə əmək münasibətlərinizin ayrılmaz tərkib hissəsidir. Kodeksimizə əməl edilməməsi əmək münasibətlərinə xitam verilməsi də daxil olmaqla intizam tənbeh tədbirlərinin tətbiqi ilə, üçüncü tərəflərə (kənar şəxs və qurumlara) münasibətdə isə müqavilə münasibətlərinə xitam verilməsi ilə nəticələnə bilər.

© 2024 SOCAR Bütün hüquqlar qorunur

Azərbaycan dili versiyası və digər tərcümə edilmiş versiyalar arasında uyğunsuzluqlar olduğu təqdirdə, Azərbaycan dilində olan versiyaya üstünlük verilir.